**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)- /2019
2019-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyası

Hakimlər Hüseynov Abiddin Qabil oğlunun sədrliyi və məruzəsi ilə,
Xəlilov İsmayıl Kamil oğlundan və Sadıqov Vahid Nəriman oğlundan ibarət tərkibdə,
Səfərli Xədicə Əlicabbar qızının katibliyi,
iddiaçının nümayəndəsi XXXX, vəkili XXXX
cavabdehin nümayəndəsi XXXX iştirakı ilə,

iddiaçı XXXX qızının cavabdeh "XXXX" ASC-yə qarşı kompensasiyanın ödənilməsi tələbinə dair 2(006)- /2017 saylı iş üzrə Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin 20 noyabr 2017-ci il tarixli qətnaməsindən iddiaçı tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq

**MÜƏYYƏN ETDİ:**

İddiaçı XXXX qızı cavabdeh "XXXX" ASC-yə (bundan sonra – Bank) qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən onun xeyrinə 100000 manat kompensasiyanın tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddia onunla əsaslandırılmışdır ki, o, 25.01-07.06.2016-cı il tarixlərdə Bankda təcrübə keçib. 07.06.2016-cı il tarixdə sənədləri Bankın XXXX filialının əməliyyat şöbəsinin boş olan mütəxəssis ştatına göndərilib. 14.06.2016-cı il tarixdə imtahan və müsabiqədən keçib. İşə qəbul olunduğu və bir neçə günə əmrinin veriləcəyi bildirilərək, onu Bankın XXXX filialına işləməyə göndəriblər. XXXX-.XXXX-cı il tarixlərdə analıq məzuniyyətinə çıxmış aparıcı mütəxəssisin sistemi ilə müqaviləsiz və heç bir əmək haqqı almadan çalışıb, onun işini tam icra edib. XXXX-cı il tarixdə imtahan verib ştata keçməsinə baxmayaraq, onunla əmək müqaviləsi deyil, tapşırıq müqaviləsi bağlanıb. XXXX-XXXX-cı il tarixlərdə Bankda tapşırıq müqaviləsi ilə işləyib, lakin tapşırıq müqaviləsinin bir nüsxəsini ona verməyiblər. XXXX-XXXX-ci il tarixlərdə yenə müqaviləsiz işləyib. Tapşırıq müqaviləsi ilə işlədiyi dövrdə onun əmək haqqından DSMF-yə ödəniş tutulub, lakin Fondun hesabına köçürülməyib. Sonradan yaxın vaxtlarda işə qəbul olunacağını, onunla əmək müqaviləsi bağlanacağını və gözləməyini bildiriblər. Cavabdeh onu aldadıb, əmək hüquqlarını pozub. Cavabdehə XXXX-ci il tarixdə ərizə ilə müraciət edərək pozulmuş hüquqlarının bərpa olunmasını və ona vurduqları zərəri kompensasiya etmələrini xahiş etsə də, ona cavab verilməyib.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 20 noyabr 2017-ci il tarixli qətnaməsi ilə iddia təmin edilməmişdir.

İddiaçı apellyasiya şikayəti verərək, qətnaməsinin ləğv edilməsini, iddianın təmin edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

Apellyasiya şikayəti iddianın dəlillərinə uyğun əsaslandırılmışdır.

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)- /2018 saylı, 12.03.2018-ci il tarixli qətnaməsi ilə iddiaçının apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası 2(102)- /2018 saylı, 28.08.2018-ci il tarixli qərarı ilə iddiaçının kassasiya şikayəti təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmiş və iş yenidən baxılması üçün həmin Məhkəməyə göndərilmişdir.

Yeni apellyasiya baxışı zamanı iddiaçının nümayəndəsi şikayətin məzmununa uyğun izahat verərək, həmçinin bildirdi ki, iddiaçı onun qızıdır. XXXX ilə əmək müqaviləsi bağlamadan analıq məzuniyyətinə çıxmış XXXXnın əvəzinə onun sistemi ilə işlədiyi dövrdə səhvən 20000 manat məbləğində kredit əməliyyatı həyata keçirilmişdir. Daha sonra Bank həmin əməliyyat üzrə səhvdə iddiaçını təqsirləndirmək iştəmişdir. Bu barədə açılan cinayət işi üzrə iddiaçı şahid qismində ifadə vermişdir. İddiaçı tapşırıq müqaviləsi ilə işlədiyi dövrdə əmək haqqı tam ödənilmişdir. XXXXilə əmək müqaviləsi bağlamadan və əmək haqqı ödəmədən işlədildiyi dövr üzrə əmək haqqını tələb edirlər. İddiaçının nümayəndəsi apellyasiya şikayətinin təmin olunmasını xahiş etdi.

İddiaçının vəkili bildirdi ki, iddiaçı Bankın şikayəti əsasında başlanmış cinayət işi üzrə şübhəli qismində dindirilmiş, istintaq zamanı səhv aparılmış maliyyə əməliyyatlarında onun günahının oladığı müəyyən edilmişdir. Həmin araşdırma çərçivəsində, həmçinin iddia ərizəsində göstərilən dövrdə iddiaçının Bankda faktiki işlədiyi müəyyən edilmişdir.

Cavabdehin nümayəndəsi apellyasiya şikayətinə etiraz edərək bildirdi ki, Bankın XXXX filialında XXXX-XXXX-cı il tarixlərdə tapşırıq müqaviləsi əsasında xidmət göstərmiş iddiaçı yalnız müqavilədə göstərilən vəzifələri icra etmişdir. İddiaçı analıq məzuniyyətinə çıxmış XXXXnın sistemi ilə heç bir əmliyyat aparılmamışdır. Bundan başqa, şəxslə əmək, yaxud tapşırıq müqaviləsi bağlamaq Bankın hüququdur və bu barədə ona göstəriş verilə bilməz. İddiaçı daha əvvəl təcrübəçi kimi Bankda işi öyrənmiş, sonradan onunla tapşırıq müqaviləsi bağlanmış və müqavilə üzrə fəaliyyət göstərdiyi dövr üçün ona əmək haqqı ödənilmişdir. Cavabdehin nümayəndəsi apellyasiya şikayətinin təmin olunmamasını xahiş etdi.

Məhkəmə kollegiyası işdə iştirak edən şəxsləri dinləyib, apellyasiya şikayətinin dəlillərini və iş materiallarını araşdıraraq hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası işin yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilməsi barədə qərarında göstərmişdir ki, ilk növbədə, tərəflər arasındakı münasibətlərin əmək münasibətləri olmasına baxmayaraq, onun hüquqi formasının tapşırıq müqaviləsi şəklində rəsmiləşdirilməsinə lazımı hüquqi qiymətin verilməmişdir. Belə ki, XXXX-XXXX-cı il tarixlərində iddiaçı tərəfindən Bankın XXXX filialında işlərin görüldüyü mübahisəsizdir. Lakin iddiaçı ilə əmək müqaviləsi deyil, tapşırıq müqaviləsinin bağlanması səbəbləri araşdırılmamışdır. Halbuki, iddiaçının yerinə yetirdiyi işin əmək müqaviləsi ilə rəsmiləşdirilməsinə maneə olan hər hansı hal məhkəmə araşdırması zamanı müəyyən edilməmişdir. Bu mənada, işçilər üçün daha yüksək təminat nəzərdə tutan əmək müqaviləsi əvəzinə, tərəflər arasındakı münasibətlərin tapşırıq müqaviləsi ilə rəsmiləşdirilmiş olması halına lazımı hüquqi qiymət verilməlidir. Bundan başqa, iddiaçı iddia ərizəsində konkret faktlara (XXXX-cı ildən XXXX-cı ilədək heç bir müqavilə bağlanmadan analıq məzuniyyətinə çıxmış XXXXnın sistemi ilə aparıcı mütəxəssis vəfizəsini icra etməsi, kassa sənədlərini imzalaması, ona ödənilən puldan Bank tərəfindən DSMF üçün pul tutulması və s.) istinad etmişdir. Lakin iddiaçı tərəfindən bu hallarla bağlı hər hansı sübut təqdim edə bilməmiş, işə baxan məhkəmələr də buna istinad etməklə iddianı rədd etmişlər. Halbuki Əmək Məcəlləsinin 14-cü maddəsinin 1-ci hissəsinə görə, əmək münasibətlərinin tənzimlənməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində qanunvericiliyin tələblərinə ciddi əməl etməlidir.

MPM-in 420-ci maddəsinə müvafiq olaraq kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

İşdə olan yazılı sübutlarla müəyyən edilir ki, tərəflər arasında bağlanmış 03 oktyabr 2016-cı il tarixli tapşırıq müqaviləsinə əsasən, Bank XXXX-ya XXXX-cı il tarixdən XXXX-cı il tarixədək XXXX filialının əməliyyat bölməsinə köməklik işləri, fiziki şəxslərin açılmış cari və depozit hesabları sənədlərinin qovluqlara tikilməsi səlahiyyətlərini tapşırmış, sonuncu isə həmin tapşırığı qəbul edərək işlərin nəzərdə tutulan müddətlərdə və yüksək keyfiyyət səviyyəsində həyata keçirilməsini öz üzərinə götürmüşdür. Tapşırıq müqaviləsində vəkalət alana görülən işlərə görə aylıq 500 manat ödənilməsi nəzərdə tutulmuşdur.

Birinci instansiya məhkəməsi işin müəyyən edilmiş hallarına Azərbaycan Respublikası Əmək Məcəlləsinin 42-ci maddəsinin 1 və 2-ci hissələrini, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 777.1 və 777.2-ci maddələrini tətbiq etməklə belə qənaətə gəlmişdir ki, iddiaçı öz tələbini təsdiq edən sübutları təqdim edə bilmədiyinə görə iddia rədd olunmalıdır.

Məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsi mübahisənin faktiki halları, tərəflərin münasibətləri və tətbiq edilməli olan hüquqla bağlı düzgün nəticəyə gəlmişdir.

Apellyasiya şikayətinin dəlilləri qətnamənin ləğvi üçün əsas deyil.

Baxılan iş üzrə iddiaçı cavabdeh tərəfindən ona vurulmuş zərərə görə kompensasiya ödənilməsini tələb edir.

Mülki Məcəlləyə əsasən mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir). Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır (maddə 1096).

Qeyd olunan maddənin dispozisiya şərtlərindən göründüyü kimi hər hansı iş üzrə zərərin ödənilməsi barədə iddianın təmin olunması üçün aşağıdakı əsaslar müəyyən edilməlidir: zərərin mövcud olması, zərərin qanunsuz hərəkət və yaxud hərəkətsizlik nəticəsində vurulması, zərərlə qanunsuz hərəkət və yaxud hərəkətsizlik arasında səbəbli əlaqənin olması, zərər vuran şəxsin təqsirli olması.

«Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli qərarında ifadə olunmuş hüquqi mövqelərə görə mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

İş üzrə iddiaçının cavabdehlə tapşırıq müqaviləsi bağlamazdan əvvəl iş öyrənmək və ya təcrübə keçmək məqsədilə Banka getdiyi, habelə tapşırıq müqaviləsi qüvvədə olduğu dövrdə onda nəzərdə tutulmuş muzdun iddiaçı ödənildiyi işin mübahisəsiz halıdır.

İddiaçı cavabdehin onu daimi işə götürəcəyi barədə şifahi öhdəlik götürdüyünü bildirsə də, bununla bağlı heç bir sübut təqdim etməmiş, cavabdeh də iddiaçı qarşısında belə bir öhdəliyinin olmadığını bildirmişdir.

Əksinə 03.10.2016-cı il tarixdə tapşırıq müqaviləsinin bağlanması iddiaçının Bankla aralarında anlaşılmazlığın olmadığını və öz iradəsinə uyğun olaraq Bankla əməkdaşlıq etməkdə maraqlı olduğunu təsdiq edir. İddiaçı tapşırıq müqaviləsinin onu iradəsinə zidd bağlandığını əsaslandırmamış, bununla bağlı sübutlar təqdim etməmişdir.

Apellyasiya baxışı zamanı Banka sorğu göndərilmiş, təqdim edilmiş cavab məktubunda və nümayəndəsinin izahatında Bankın XXXX filialında 01.10-31.12.2016-cı il tarixlərdə

tapşırıq müqaviləsi əsasında xidmət göstərmiş iddiaçının yalnız müqavilədə göstərilən vəzifələri icra etdiyi, həmin müddətdə analıq məzuniyyətinə çıxmış XXXXnın sistemi ilə heç bir əmliyyat aparmadığı bildirilmişdir.

İddiaçı tapşırıq müqaviləsinin müddəti bitdikdən sonra Bankda çalışmaqda davam etdiyini və əmək haqqı almadığını bildirmiş, lakin bununla bağlı da heç bir sübut təqdim etməmişdir.

Tərəflər arasında bağlanmış tapşırıq müqaviləsinin mahiyyəti ilə bağlı Məhkəmə kollegiyası qeyd edir ki, tərəflər həmin müqavilədə muzd (əmək haqqı) və əməkdaşlığın müddəti barədə razılığa gəliblər. Müqavilədə şərtləşdirilmiş muzd iddiaçıya ödənilib və müqavilədə göstərilən müddət bitdikdən sonra onunla əməkdaşlığa xitam verilib. Belə olan halda müvafiq dövr üzrə iddiaçıya hansı zərərin vurulduğu aydın deyil.

Nəzərə alınmalıdır ki, Bankın əmək qanunvericiliyinin tələblərini pozaraq əmək müqaviləsi əvəzinə tapşırıq müqaviləsi bağlaması və ya əmək haqqından tutulmaların təyinatı üzrə ödənilməməsi öz-özlüyündə Bankın iddiaçıya zərər vurduğu barədə qənaətə gəlmək üçün deyil, işəgötürənin və ya onun vəzifəli şəxslərinin əmək qanunvericiliyinin tələblərini pozduğuna görə inzibati məsuliyyətə cəlb olunması, habelə ödənişlərin təyinatı üzrə köçürülməsinin Banka həvalə edilməsi üçün əsas ola bilər.

Tərəflər arasında bağlanmış müqavilənin adlandırılmasından asılı olmayaraq həmin müqaviləyə əmək müqaviləsi kimi qiymət verilərsə belə, müqavilə XXXX-cı il tarixədək bağlandığı üçün Əmək Məcəlləsinin 73-cü maddəsinə əsasən Bank həmin tarixdən iddiaçı ilə əmək münasibətlərinə xitam verməkdə haqlı olmuşdur.

Sadalanan hallar baxımında, habelə tərəflər arasında tapşırıq müqaviləsi bağlananadək iddiaçının Bankda iş öyrənmək məqsədilə təcrübə keçdiyi işin mübahisəsiz halı olduğu üçün Məhkəmə kollegiyası iddiaçının vəkilinin istinad etdiyi cinayət işinin materiallarının tələb olunmasına zərurət görməmişdir.

Ona görə apellyasiya şikayəti təmin edilməməli, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə əsasən və MPM-in 382, 384, 392, 393 və 405-ci maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

**QƏT ETDİ:**

İddiaçı XXXX qızının apellyasiya şikayəti təmin edilməsin.

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)- /2017 saylı iş üzrə 20 noyabr 2017-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 (iki) ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

**Sədrlik edən hakim imza: Abiddin Hüseynov**
**Hakimlər imzalar: İsmayıl Xəlilov**
**Vahid Sadıqov**

**Əsli ilə düzdür:**
**Hakim Abiddin Hüseynov**